## Natural ədədlər (9-cu sinif buraxılışa düşmüş suallar, 2022-2025)

**1.** Sinifdəki şagirdlərin sayı 30-dan çox, 40-dan isə azdır. Onları həm iki-iki, həm də üç-üç oturtmaq mümkün olarsa, sinifdə neçə şagird var?

A) 30 B) 36 C) 34 D) 38 E) 32

*(27 aprel 2025, DİM)*

**2.** ƏBOB(32; 68) · ƏKOB(32; 68) hasilini hesablayın.

A) 1626 B) 3252 C) 4352
D) 2176 E) 1088

*(27 aprel 2025, DİM)*

**3.** 1, 7, 9, 5, 3, 6 rəqəmlərindən (hər rəqəmdən bir dəfə istifadə etməklə) düzələn ən böyük və ən kiçik altırəqəmli ədədlərin fərqini tapın.

A) 800852 B) 100000
C) 840852 D) 796095
E) 450435

*(20 aprel 2025, DİM)*

**4.** ƏKOB(18; 36) + ƏBOB(10; 11) cəmini hesablayın.

A) 19 B) 63 C) 27 D) 46 E) 37

*(13 aprel 2025, DİM)*

**5.** $\overline{ab}+\overline{ba}=88(a-b)$ şərtini ödəyən ikirəqəmli $\overline{ab}$ ədədini tapın.

*(13 aprel 2025, DİM)*

**6.** $x, y, z$ natural ədədləri üçün $xy=6$ və $yz=18$ olarsa, $x+y+z$ cəminin ən kiçik qiymətini tapın.

*(13 aprel 2025, DİM)*

**7.** İki ardıcıl tək natural ədədin cəmi 68 olarsa, bu ədədlərin kiçiyini tapın.

A) 33 B) 31 C) 39 D) 35 E) 37

*(5 may 2024, DİM)*

**8.** Həm 2-yə, həm də 3-ə bölünən ədədi göstərin.

A) 945 B) 6124 C) 650
D) 3321 E) 1608

*(21 aprel 2024, DİM)*

**9.** $a$ –nın hansı ən böyük qiymətində $\overline{4a9b}$ ədədi 45-ə bölünər?

*(21 aprel 2024, DİM)*

**10.** Qarşılıqlı sadə olan $a+5$ və $b$ ədədlərinin $ƏKOB$-u 420-dir. $a\cdot b+7b=450$ olarsa, $b$-ni tapın.

A) 20 B) 25 C) 21 D) 15 E) 14

*(7 aprel 2024, DİM)*

**11.** Ədədlərdən neçəsi təkdir?
22; 55; 63; 88; 100; 300; 303; 399
A) 5 B) 6 C) 4 D) 2 E) 3

*(17 mart 2024, DİM)*

**12.** ƏKOB(60; 80) : ƏBOB(60; 80) ifadəsinin qiymətini tapın.
A) 24 B) $\frac{3}{4}$ C) 10 D) $\frac{4}{3}$ E) 12

*(17 mart 2024, DİM)*

**13.** Olimpiadaya Bakıdan 36, Şamaxıdan 24, Gəncədən 16 şagird qatılmışdır. Şagirdlər müxtəlif şəhərlərdən olmaqla mehmanxanadan ayrı-ayrı otaqlara bərabər sayda olmaqla yerləşdirilir. Ən azı neçə otaq lazımdır ?

*(30 aprel 2023, DİM)*

**14.** $\overline{2a345}$ ədədi $a$-nın hansı qiymətində 9-a tam bölünür?
A) 4 B) 5 C) 3 D) 8 E) 2

*(16 aprel 2023, DİM)*

**15.** $\frac{ƏKOB(96;16)}{ƏBOB(96;16)}$ hesablayın.
A) 24 B) 16 C) 12
D) 6 E) 32

*(16 aprel 2023, DİM)*

**16.** $a = 11 \cdot 29$ hasilinin natural bölənlərinin sayını tapın.

*(16 aprel 2023, DİM)*

**17.** $(2; 5; 0)$ rəqəmlərindən istifadə etməklə əmələ gələn bütün ikirəqəmli ədədlərin cəmini tapın.
A) 150 B) 157 C) 220 D) 224 E) 125

*(9 aprel 2023, DİM)*

**18.** Eni və uzunluğu 18 və 24 sm olan düzbucaqlının daxilinə tərəfi 6 sm olan ən azı neçə kvadrat çəkmək olar?

*(9 aprel 2023, DİM)*

**19.** $ƏBOB(30; 36)$-nı tapın.

A) 30 B) 6 C) 36 D) 12 E) 180

*(1 may 2022, DİM)*

**20.** Uzunluqları 200 $sm$, 250 $sm$ və 300 $sm$ olan taxta parçalarını usta elə kəsməlidirki, hissələrin hamısı eyni ölçüdə olsun. Usta hər kəsimə 10 saniyə vaxt ayırmaqla, işi ən qısa neçə dəqiqəyə qurtarar?
A) 2,5 dəq B) 3 dəq
C) 4 dəq D) 2 dəq
E) 3,5 dəq

*(1 may 2022, DİM)*

**21.** $\overline{aa}\cdot\overline{bb}=726$ olarsa, $a+b$ cəminin ən böyük qiymətini tapın.

A) 5 B) 7 C) 6 D) 8 E) 9

*(30 aprel 2022, DİM)*

**22.** $b=11\cdot 29$ olarsa, $b$ ədədinin tam bölənlərinin sayını tapın.

A) 2 B) 5 C) 4 D) 1 E) 8

*(24 aprel 2022, DİM)*

**23.** Təkliflərdən doğru olanı seçin.

1) ƏBOB($ac$; $bc$) = c·ƏKOB($a;b$)
2) ƏKOB($a;b$) : ƏBOB($a;b$) = $a:b$
3) ƏKOB($a;b;c$) = ƏKOB(ƏBOB($a;b$);$c$)
4) ƏBOB($a;b$) ·ƏKOB($a;b$) = $a\cdot b$
5) ƏKOB($a;b;c$)=ƏKOB(ƏKOB($a;b$),$c$)

A) 3;4 B) 2;3 C) 1;2
D) 4;5 E) 2;4

*(24 aprel 2022, DİM)*

**24.** ƏBOB(207; 702)·ƏKOB(207; 702) ifadəsinin 5-ə bölünməsindən alınan qalığı tapın.

A) 0 B) 1 C) 2 D) 3 E) 4

*(23 aprel 2022, DİM)*

**25.** 8, 3, 4, 9, 2, 1 rəqəmlərinin hər birindən bir dəfə istifadə etməklə yazıla bilən ən böyük və ən kiçik ədədlərin cəmini tapın.

A) 1177810 B) 1017810
C) 1107810 D) 861768
E) 860832

*(23 aprel 2022, DİM)*

**26.** $\overline{ab}+\overline{ba}=88\cdot(a-b)$ olarsa, $\overline{ab}$ –ni tapın.

*(17 aprel 2022, DİM)*

**27.** $\overline{ab}+\overline{ba}+\overline{cc}=99$ olarsa, $a, b$ və $c$ ədədlərinin ədədi ortasını tapın.

A) 9 B) 6 C) 3 D) 11 E) 1

*(16 aprel 2022, DİM)*

**28.** Ə$KOB(120;72)$: Ə$BOB(120;72)$–ni hesablayın.

*(16 aprel 2022, DİM)*

**29.** $7234\cdot 6277$ hasilinin 9-a bölünməsindən alınan qalıq $m$, $7332\cdot 5274$ hasilinin isə 10-a bölünməsindən alınan qalıq $n$ olarsa, $m+n$ cəminin 5-ə bölünməsindən alınan qalığı tapın.

*(16 aprel 2022, DİM)*

Düzgün cavablar

1B 2D 3C 4E 5 (97) 6 (10) 7A

8E 9 (9) 10D 11C 12E 13 (19) 14A

15D 16 (4) 17D 18 (12) 19B 20D

21B 22E 23D 24E 25 C 26 (97)

27C 28 (15) 29 (4)